# Qəhrəmanlar unudulmur

Elnur Gəgiş oğlu Talıbov Vətən, torpaq uğrunda haqq savaşımızda qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Bu gənc İkinci Qarabağ müharibəsinə könüllü yollananda ömrünün 24-cü ilini yaşayırdı.




Elnur Talıbov qartallı qayaların qoynuna sığınan Lerik şəhərində dünyaya göz açmışdı. Sonradan valideynləri ilə birgə Lənkəran şəhərinə köçürlər. Vətən, torpaq sevgisi, insana məhəbbət, böyüyə hörmət, onun həmdəmi olur. Orta təhsilini başa vurub 2015-ci ildə ordu sıralarına gedir. Nümunəvi xidməti ilə fərqlənir, düşmənin başını əzməkdən ötrü hərbi bilik və bacarığını artırır. Aprel döyüşlərində böyük rəşadət göstərir, ən əsası strateji mövqelərin azad etməsində sübut edir ki, Vətən sevgisini zərurət anında xalq, dövlət yolunda təmənnasız xidmətə çevirməyi bacaran igiddir. Həmin ilin iyul ayında Vətən qarşısında borcunu ləyaqətlə, başa vurub, evinə qayıdır. Ailəsinə kömək etmək məqsədilə bir çox işlər görür. Həm də çoxlarına yaxşı günün sirdaşı, dar günün qardaşı olur.

2020-ci il sentyabr ayının 27-də Vətən müharibəsi başlanan zaman Elnur silaha sarılıb işğal edilən torpaqların hər qarışının qisasını dığalardan almaq üçün qartal kimi onların üstünə şığıyır. Azərbaycanın üçrəngli bayrağı 30 il əsarətdə olan Qarabağ torpaqları üzərində dalğalananda düşməndən intiqam almaq alovu get-gedə güclənir. İgid əsgər oktyabr ayının 5-də Xocavənd istiqamətində gedən şiddətli döyüşlərdə təki " Vətən yaşasın", - deyə canını ona qurban verir.

Şəhidin qardaşı onun haqqında deyir: "Qardaşım sonuncu dəfə sentyabrın 29-da danışdı. Mənə "Qardaşım, evimizdən bayraq asın, atam-anam sənə əmanət. İnşallah oğlun olsa, ona mənim adımı qoyarsan" - vəsiyyətini etdi. Onunla müharibədə çiyin-çiyinə vuruşan yoldaşlarının dediyinə görə, Elnur ağır döyüşlərdə belə mərdliklə, igidliklə iştirak edib. Qarşısıalınmaz bir qəhrəman olub, düşmənə çoxlu sayda sarsıdıcı zərbələr endirib. Şəxsi igidliyi əsgərləri də yalnız qələbəyə aparıb. İndi fəxr edirəm belə bir qardaşım olub. Bütün el qardaşımla qurur duyur. Dövlətimiz də Elnurun döyüş meydanında göstərdiyi qəhrəmanlığına yüksək qiymət veribdir. Ölümündən sonra "Vətən uğrunda", Xocavəndin, Füzulinin azad olmasına görə medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU.**

Respublika.- 2022- ci il.- 2 avqust.- S. 5.